UOT 94(479.24); UOT 930.2

ŞƏBNƏM RÜSTƏMOVA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun doktorantı
shabnamrustamova23@gmail.com

QƏRBİ AZƏRBAYCANIN NÜVƏDİ KƏNDİ TARİXİ QAYNAQLARDA

DOI: https://doi.org/10.36719/2708-065X/110/305-311

Qərbi Azərbaycanın ruhən ayrılmaz, zorla qoparılmış bir parçası olan Zəngəzur qəzasının qərb hissəsi qanunsuz olaraq 1921-ci ildə Ermənistana birləşdirdilmişdir. Zəngəzur qəzası Ermənistan SSR-ə verildikdən sonra Nüvədi kəndi inzibati ərazi vahidi kimi Azərbaycan SSR-in Zəngilan rayonunun tərkibində qalmışdır. Kəndin Ermənistan SSR-ə verilməsi barədə qərar 1929-cu ildə qəbul edilsə də, bu məsələ yalnız 1969-cu ildə Azərbaycan SSR tərəfindən rəsmən təsdiqlənmişdir. Arxiv sənədləri sübut edir ki, rayonun ən qədim yaşayış məntəqələrindən biri olan Nüvədi kəndi tarixən azərbaycanlıların məskunlaşdığı ərazi olmuşdur. Təqdim edilən məqalədə müxtəlif yazılı qaynaqlar və zəngin ədəbiyyat əsasında Zəngəzur torpağının Meğri bölgəsinin qədim Nüvədi kəndinin tarixindən bəhs olunur.

Açar sözlər: Qərbi Azərbaycan torpaqları, Zəngəzur qəzası, Meğri bölgəsi, Nüvədi kəndi, Osmanlı dəftəri, kameral siyahıyaalınma.

Giriş. Qərbi Azərbaycan (indiki Ermənistan Respublikasının ərazisi) bütöv Azərbaycanın ruhən ayrılmaz, zorla qoparılmış bir parçasıdır. Çuxursəd-İrəvan, Şörəyel-Ağbaba, Göyçə-Zəngəzur və onlarla digər qədim yaşayış məskənlərimiz hər zaman həqiqi sahiblərinin yolunu gözləyir. Onlar Azərbaycandan zorla qoparılsalar da daş yaddaşlarda, tarixi qaynaqlarda və xəritələrdə öz tarixi keçmişini əbədi olaraq qoruyub saxlamışlar.

Nüvədi Araz çayının sol sahilində Xudafərin körpüsündən təxminən 200 km məsafədə salınmış qədim kənddir. Mehri rayonunun ərazisindən keçən Bakı-Naxçıvan dəmir yolunun 26 km-i məhz Nüvədinin ərazisindən keçirdi. Əhalinin axırıncı siyahıyaalınmasına əsasən Mehri rayonunda yaşayan 14.400 nəfər əhalinin 4.660 nəfəri azərbaycanlı idi. Onlardan 1384 nəfəri Nüvədidə yaşamışdı (15).

1. Nüvədi oykonimi

Nüvədi oykoniminin mənşəyi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Professor Qəzənfər Kazımov daha düzgün olaraq Nüvədi oykoniminin kəndin relyefi ilə bağlı olduğu fikrini irəli sürmüşdür. Müəllif yazır ki, "*cənublu-şimallı Azərbaycan ərazisində **Nüvədi kəndləri** çoxdur və bu toponim müxtəlif variantlarda – **Nüvədi, Nügədi, Nöyədi** və s. – işlənir. Meğri ərazisindəki Nüvədi kəndi çay vadisində yerləşir: sıldırım dağlardan axıb gələn çayın hər iki sahilində çaya yaxın ərazidə evlər elə tikilib ki, kənd və onun arasından axıb gedən çay evlərin üstündən tökülən suyun axıb getməsi üçün düzəldilən novları xatırladır, ona görə də kəndin yaşlı və savadlı adamları Nüvədi sözünü "nov vadi" (nov şəklində olan vadi) kimi yadda saxlamışlar. Nüvədi çox yerdə olsa da, hamısı Azərbaycan ərazisindədir və bu sözün fars mənşəli olması inandırıcı deyildir*" (8, s.37).

2. Nüvədi kəndi – daş kitabələr danışır

Qərbi Azərbaycanın müxtəlif bölgələrindən, o cümlədən Zəngəzurdan tapılan daş kitabələr, tarixi abidələr, çoxsaylı maddi-mədəniyyət nümunələri buranın aborigen sakinlərinin Azərbaycan türkləri olduğunun təkzibedilməz dəlilləridir.

Ə.Ələkbərli *"Zəngəzur mahalının Qarakilsə rayonu ərazisindəki e.ə. II minilliyə aid Qoşundaş tikili qalıqları, e.ə. VIII yüzillikdə İrəvan şəhəri yaxınlığında Qırmızıtəpə adlı yüksəklikdə ucaldılmış Teyşebaini, İrəvan şəhərinin yerində Qanlıtəpə adlı yüksəklikdə salınmış Erebuni, Göyçə mahalının Qaranlıq (indiki Martuni) rayonunun Kolagirən kəndinin kənarındakı Teyşeba qalaları, Zəngəzur mahalının Meğri rayonunun Nüvədi kəndində aşkar edilmiş eradan əvvəlki minilliklərə aid Qarqadaşı kitabələri, Gəmibasar mahalında e.ə. III-II yüzillikdə inşa edilmiş Gəmi qalası və həmin qalada*

eramızın I yüzilliyində Arman hökmdarı I Tridat tərəfindən tikilmiş, "Təxti-Turadat" adı ilə tarixə düşən sarayın xüsusi yer tutduğunu" yazır (4, s.1).

Həmzə Vəli oğlu Əliyevin Nüvədi kəndi ərazisindəki Qarqadaşı dağından tapdığı, Orxon-Yenisey yazılı abidələrinin eyni olan daş kitabələr xüsusi və təsdiqedici tarixi faktlardır. Bu daş kitabə haqqında ilk məlumatı elmi ictimaiyyətə məhz Nüvədi sakini Həmzə Vəli çatdırmışdır. Müəllifin 1998-ci ildə çap etdirdiyi ***"Nüvədi kitabələri"*** adlı əsərində Nüvədi kəndinin qədim coğrafi obyektləri ilə bağlı elmi ictimaiyyətə maraqlı məlumatlar təqdim edilmiş və həmçinin Qarqadaşı abidəsi haqqında müəllifin maraqlı fikirləri ortaya qoyulmuşdur. Kitabda bu daş kitabənin foto-materialları da ilk dəfə elmi ictimaiyyətə təqdim etmişdir (7).

Həmzə Vəli "Qarqadaşı" toponimini çox doğru olaraq Qarqar tayfalarının adı ilə bağlayır (7, s.14). Ə.Ələkbərli bu kitabə haqqında yazır ki, Qarqadaşı kitabələri göytürk hərfləri ilə yazılmışdır. 1985-ci ildə kənd sakini, şair Həmzə Vəlinin ortaya çıxardığı bu daşlardan böyüyünün ölçüsü 100 x 70 sm, kiçiyinin ölçüsü isə 40x32 sm idi (4, s.8).

3. *Nüvədinin qədim toponimləri*

Nüvədi kəndi və ona bitişik ərazilərdə min illər bundan öncə babalarımız tərəfindən yaradılmış onlarla qədim yer adları, daş mağaralar, çoxsaylı hidronim, oronim, oykonim və s. bir sözlə zəngin onomastik materiallar mövcuddur. Həmzə Vəli bu onomastik vahidlərin bəzilərini qeydə alaraq onların vəziyyəti, mənşəyi haqqında qeyd etdiyimiz kitabında ilk olaraq maraqlı məlumatlar vermişdir.

Həmzə Vəli Nüvədi kəndi ərazisində hər tərəfi qalın meşəlik və qayalıqdan ibarət olan ***Barzaxı*** adlı əkin yeri haqqında məlumat verərək bu yerin qədim türk dilində "barz"// "bars" – qara bəbir, "axı"// "ağı"nın isə – xəzinə demək olduğunu yazır (7, s.11). Tədqiqatçı İ.Bayramov isə Türkiyə tarixçisi Faruk Sümerin "Oğuzlar" əsərinə əsaslanaraq bu toponimin oğuz tayfalarından olan barza etnonimindən əmələ gəldiyini yazır (2, s.349).

Nüvədi toponimlərinin mənşəyi haqqında İ.Bayramovun tədqiqatlarında maraqlı açıqlamalar vermişdir: Müəllif *Nüvədi kəndinin Ternovit yaylağında yerləşən "**Bayandur bulağı**" haqqında məlumat verərək bu hidronimin "Bayandur türk tayfa adından yarandığını"* qeyd edir (2, s.348-349).

Çuğulxuzan dərəsi – Nüvədinin dağ ərazisində qalın meşəli dərin dərədən ibarətdir. Bu söz də türkmənşəli toponim olub, "çuqur" – çuxur deməkdir. "Quz" komponentindəki "q" səsi "x" səsinə çevrilmişdir və "xuz" alınmışdır. Quz isə – kölgə, quzey deməkdir. Çuğulxuzan – Quzey Çuxur, Kölgəli çuxur deməkdir. Çuğulxuzan – Nüvədinin dağ ərazisində seyrək meşəlikdən ibarət sahədir (7, s.11).

Heramaşın – Nüvədinin dağ ərazisində seyrək meşəlikdən ibarət sahədir. Bu toponimi izah edən Həmzə Vəli bunun qədim əkinçiliklə bağlı olduğunu vurğulayaraq yazır: "Bu toponimdəki "hera" hissəsi Nüvədi sakinlərinin dilində ancaq öküz ilə cüt əkəndə işlənərdi: *"Aya öküzün burnundan vur, hera buraxdı"* yəni xış tutmamış, şumlanmamış boş yer qaldı. Demək "hera" – *dən düşməyən, boş, xali* mənasındadır. "Maşın" komponentinin izahı isə maraqlıdır. Əslində bu söz türk dilində "meşe" – *palıd, meşə* sözüdür. Beləliklə, heramaşın – türk mənşəli toponim olub, mənası *seyrək meşə, boş meşə* deməkdir. Doğrudan da bu sahə seyrək palıdlıqdan ibarət meşədir" (7, s.11).

Nığrı – Nüvədi dağında yer adıdır. Nüvədililər səsli-küylü ailəyə və yaxud səsli-küylü yerə: *"filan ailə çox nığnığalı ailədir"* və ya *"filan yer çox nığnığalı yerdir"* deyirlər. Nığrı yaz aylarında qoyun-quzu sürüləri ilə dolu olur, mələrtidən qulaq tutulur. Nığrı əslində nığılıdır mənası səsli-küylü yer deməkdir (7, s.11).

Sapadərə – Nüvədi kəndində dağ adıdır. İ.Bayramov yazır ki, *"H.Vəlinin fikrincə, oronim şumercə "çoban" mənasında işlənən şuba sözü əsasında əmələ gəlmişdir və sonradan həmin söz Saba > Sapa > Sipa şəkilini düşmüşdür. Sapa dərə "çoban dərəsi" mənasını verir"*(2, s. 351).

Nüvədi kəndinin ortasından axan ***Sələng çayı*** hidroniminin mənşəyi ilə bağlı xüsusi araşdırma aparan tədqiqatçı İ.Bayramov yazır: "*E.Əzizovun fikrincə, çayın qədim adı Seleneçay olmuş, sonralar Selengə – Seleng formasına çevrilmişdir Daha sonra yerli şivənin xüsusiyyətinə uyğun olaraq Sələnc şəklinə düşmüşdür ki, Nüvədi kənd şivəsinə g~c səsə əvəzlənməsi qanunauyğun haldır. Hidronim monqol dilində "rahat, geniş, sakit" mənasında işlənən selenqe sözü əsasında yaranmışdır. Çayın ilkin doğru adı "Sələngçay" olub. Məşhur türkoloq Vasili Radlova görə isə, hidronim türk dilində "səs, səs-küy" mənasında işlənən sələng (salank) sözü əsasında formalaşmışdır"* (2, s.352).

Turu gədiyi – bu aşırım Nüvədi kəndinin ərazisində yerləşir. İ.Bayramovun fikrincə, "*Oronim qədim türk dilində, o cümlədən Orxon-Yenisey abidələrində "yer, yaşayış məntəqəsi, yurd, dayanacaq" mənasında işlənən turuğ sözü ilə Azərbaycan dilində "dağın beli, aşırım" mənasında işlənən gədik sözünün birləşməsindən əmələ gəlib "dağ aşırımında yaşayış məskəni, dağ belində olan yurd" mənasını ifadə edir. Turu (turuğ) sözü Altay dilində turlu, xakas dilində turlağ və tuva dilində "qaya" mənasında turuq formasında işlənir*" (2, s. 353-354).

Nüvədi kəndi və ona bitişik ərazilərdə qeydə alınmış zəngin onomastik materialların dilçi alimlərimiz tərəfindən tədqiqata cəlb edilməsi və bu materialların dünyanın müxtəlif arealına daxil olan müxtəlif türk tayfalarının dilləri ilə oxşarlıq və bəzən də eynilik təşkil etməsi xüsusi əhəmiyyət daşıyır. Bütün bu materiallar sübut edir ki, bölgənin aborigen əhalisi məhz azərbaycanlıların ulu babası olan oğuz türkləri olmuşdur.

4. Nüvədi kəndi yazılı qaynaqlarda

Kəndin adı ilk dəfə 1593-cü il "***Urud və İsgəndərqalası livalarının müfəssəl dəftəri***"ndə qeydə alınmışdır. Həmin sənəd Ankarada "Tapu və Kadastro Kuyum-i Kadime Arşivi"ndə saxlanılır. 4 nahiyəsi olan Urud livasında 36 kənddən ibarət Urud, 12 kənddən ibarət Kığı, 44 kənd, məzrəə və camaatdan ibarət Muğancıq nahiyələri ilə yanaşı, 19 kənddən və Xancanlı, Cavanşirli, İshaqlı, Qovamilalı və Həsənxocalı camaatlarından ibarət *Zəngəzur nahiyəsi* qeydə alınmışdır (9, s.401-404; 13, s.17).

Məlumdur ki, Səfəvilər imperiyasının mövcud olduğu dövrdə (1501-1736) tarixi Azərbaycan torpaqları əsasən altı inzibati qurumun – Azərbaycan (Təbriz), Çuxursəd (İrəvan), Şirvan, Qarabağ (Gəncə), Həmədan və Qəzvin bəylərbəyiliyinin tərkibinə daxil edilmişdi.

Təəssüf ki, Qarabağ və Qərbi Azərbaycan bölgəsi iki nəhəng türk dövlətinin – Səfəvi və Osmanlı imperiyalarının əsrlərlə davam etmiş qanlı müharibələrindən ən çox əziyyət çəkən, dəfələrlə əldən-ələ keçərək faciəli bir taleyi yaşamalı olmuşdur. Bütün bunlara baxmayaraq, bu torpaqlar Səfəvi dövlətinin mühüm inzibati vahidlərindən biri kimi hər dəfə öz keçmiş əzəmətini bərpa edə bilmiş, öz tarixi varlığını, milli-mənəvi irsini qoruyub saxlaya bilmişdir.

1578-1590-cı baş vermiş Səfəvi-Osmanlı müharibələri zamanı Səfəvilərin bir sıra əraziləri ilə yanaşı Qarabağı da fəth edən osmanlılar ciddi inzibati-ərazi dəyişikliyi həyata keçirmişdilər. Naxçıvan sancağının tərkibindəki Sisian mahalı Qapanata daxil olan Bərgüşad və Urud mahalları ilə birlikdə Azərbaycan vilayətindən alınıb Çuxursəd bəylərbəyliyinə verilmiş, Keştasf və Həkəri mahalları Qarabağ vilayətinin tərkibində saxlanmışdı.

Osmanlı dövlətinin maliyyə-vergi sistemində mövcud olmuş qaydaya görə, vilayətlər üzrə təhririn keçirilməsi, yəni əhalinin siyahıya alınması hər 30 ildən bir nəzərdə tutulurdu və bunun əsasında müfəssəl və icmal dəftərləri hazırlanırdı. Müfəssəl dəftərlər – adlarından da göründüyü kimi, daha təfərrüatlı olub bölgənin bütün gəlir mənbələri ilə birgə vergiyə cəlb edilən əhalinin adbaad qeydə alınması ilə tərtib olunurdusa, sonradan bunların əsasında hazırlanan İcmal dəftəri daha yığcam şəkildə tərtib olurdu (11, s.279).

"Urud və İsgəndərqalası livalarının müfəssəl dəftəri"nə görə Urud livası 4 nahiyədən – Urud (36 kənd), Kığı (12 kənd), Muğancıq (44 kənd), Zəngəzur (19 kənd) nahiyələrindən, Xancanlı, Cavanşirli, İshaqlı, Qovamilalı və Həsənxocalı camaatlarından, *İsgəndərqalası livası* isə 13 nahiyədən – Kəkəberd (22 kənd), Kəhram Əyrinci (24 kənd), Kəhram Sahibli (20 kənd), *Masırı* (25 kənd), Bağaberd (28 kənd), Mədəni-mis (5 kənd), Əcənan (36 kənd), Kəlaberd (17 kənd), Çavundur (57 kənd), Əmlaki-xanazor (15 kənd), Mincivan (6 kənd), Bərgüşad (58 kənd), Kəhparə (74 kənd) nahiyələrindən və Cavanşirli, Çərəli, Xalac və Yəvinökər camaatlarından ibarət idi (13, s.18).

Göründüyü kimi Qərbi Azərbaycanın ayrılmaz parçası olan *İsgəndərqalası livası* həmin dövrdə 13 nahiyədən ibarət olmuşdur. Nüvədi kəndi inzibati-ərazi vahidi kimi ***Masırı*** nahiyəsinə daxil idi. Bu nahiyəyə daxil olan 25 kənd içərisində Nüvədi kəndi qeydə alınmış əhalisinin sayına görə fərqlənir. Qeyd etdiyimiz müfəssəl dəftərdə Nüvədi kəndində 25 türk-müsəlman ailənin yaşadığı qeydə alınmışdır (9, s.267). Buna əsasən qeyd edilən dövrdə kənddə minimum 125 nəfər əhali yaşamışdır. Onu da qeyd etmək lazımdır ki, Nüvədi kəndinin adı yazılı qaynaqlarda ilk dəfə bu dəftərin məlumatlarında öz əksini tapmışdır.

Nüvədi kəndi ilə bağlı digər yazılı qaynaqlardakı məlumatları Azərbaycan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalının başa çatmasından sonra çar məmurları tərəfindən həyata keçirilən kameral təsvirlərdə izləmək mümkündür. XIX əsrin ilk otuzilliyində Rusiya imperiyası Cənubi Qafqazı ələ keçirmək üçün Qacarlar İranı ilə 1804-1813 və 1826-1828-ci illərdə apardığı müharibələrdə qalib gəldi. Bu müharibələrin yekunu olaraq hər iki dövlət arasında Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri imzalandı. Gülüstan müqaviləsinin şərtinə görə Qarabağ xanlığının tərkibinə daxil olan **Meğri dairəsinin** Çonqur və ya Qapan çaydan sağda yerləşən hissəsi İranın tərkibində qalmışdır.

Rusiya tərəfindən Qarabağ xanlığının işğalından sonra, müstəmləkəçiliyin əsas istiqamətləri içərisində imperiyanın məqsədinə uyğun idarəetmənin, xüsusilə inzibati-ərazi bölgüsünün yaradılması mühüm yer tuturdu. Rusiya imperiyanın milli ucqarlarında, o cümlədən Şimali Azərbaycan torpaqlarında həyata keçirdiyi inzibati-ərazi bölgüsü coğrafi şərait və tarixi ənənənin əksinə olaraq, daha çox uyğun etno-demoqrafik vəziyyətin yaradılması və idarə olunan milli ziddiyyətlərin təşəkkülünə yönəldilmişdi (12, s.7).

Azərbaycanda xanlıqlarının yarandığı dövrdə – XVIII əsrin ortalarında Zəngəzurun əhatə etdiyi ərazilər Pənahəli xan tərəfindən Qarabağ xanlığının tərkibinə daxil edilmişdir. Pənahəli xan Qaradağ vilayətindən Meğri və Güneyi, Naxçıvandan Tatev və Sisianı, İrəvandan Tərtər-Kolanı və Təbrizdən Zəngəzur və Qafanı birləşdirərək tarixi Zəngəzuru bir araya gətirmişdi (12, s.8).

Rusiya imperiyası tədricən hakimiyyətini möhkəmləndirdikcə, Kürəkçay müqaviləsinin (1805) şərtlərini pozaraq 1822-ci ildə Qarabağ xanlığını ləğv etdi və Qarabağ əyaləti yaratdı. Qarabağ əyaləti digər əyalətlərlə birlikdə hərbi müsəlman dairəsində birləşdirilmişdi. Həmin dövrdə Zəngəzurun əhatə etdiyi ərazilərdə Sisyan, Bərgüşad, Bababyurt, Tatev, Püsyan, Qaraçorlu və Əcanan türk mahalları qeydə alınmışdır. Zəngəzur mahalı doqquz *minbaşılığa* bölünmüşdü (12, s.8-9).

Türkmənçay müqaviləsi (1828) ilə başa çatan 1826-1828-ci illər Rusiya-İran müharibəsinin nəticələrinə görə İrəvan və Naxçıvan xanlıqları ilə yanaşı, Araz çayı sərhəd olmaqla, əvvəllər Qarabağ xanlığına daxil olan Qapan və Meğrigüney mahalları da Rusiyaya birləşdirildi. Həmin mahalların da daxil edildiyi Qarabağ əyalətinin titulyar müşavir Suşko tərəfindən 1832-1833-cü illərdə Kameral təsvir tərtib edilmişdir (bax: 13).

Kameral təsvirə görə, Nüvədi kəndi Mığrıgünüy (Meğrigüney – Ş.R.) *minbaşılığına* daxil idi. Bu siyahıyaalmalarda Meğrigüney minbaşılığının Nüvədi kəndi ilə bağlı maraqlı məlumatları izləmək mümkündür. Nüvədi, Astazur, Tuqut, Aldərə, Malvalan və Marzigit kəndlərində *kəhrizlər* var idi. Su çox, suvarılan ərazilər isə az olduğuna görə ciddi problem mövcud deyildi. Nüvədi və Astazur kəndlərinin əhalisi 3 kəhrizin suyundan, torpaqlarının miqdarına mütənasib şəkildə istifadə edirdilər (bax: 13, s.55-56).

Texniki bitki olan pambıq Meğrigüney minbaşılığının isti iqlimli dörd kəndində – Aldərə, Lehvaz, Meğri və Nüvədi kəndlərində əkilirdi. Meğrigüney minbaşılığının Aldərə, Astazur, Bartaz, Lehvaz, Malvalan, Nüvədi və Tuqut kəndlərində *üzüm* becərilirdi. Üzüm bağları əsasən qumlu və gilli torpaqlarda salınmışdı. Ağ üzümün ala-qora, kişmişi, şahani, şahəngül, qara üzümün isə gilarçi, xatun barmağı, şahani, şireyi və başqa sortları daha çox becərilirdi. Müsəlmanlar istehsal etdikləri üzümü əsasən dağ kəndlərində taxıla dəyişirdilir (bax: 13, s.58-59).

Zəngəzur mahalında tut ağacları ilə yanaşı, əncir, albalı, gilas, ərik, gavalı, nar, qoz və digər meyvələr yetişdirilirdi. Bütün qəzada *ən yaxşı nar* Nüvədi kəndində yetişirdi. Nüvədi ərazisində barama yetişdirmək üçün *tut plantasiyaları* da salınmışdı. İki tut sortu – cırtut və şahtut növləri yetişdirilirdi (13, s.59).

Bölgədə bütün verginin pul şəklində ödənilməsi praktikası mövcud olmuşdur. Nüvədi kəndi Astazur, Tuqut və Mərzeit kəndləri ilə birlikdə ildə gümüş pulla 3.200 rubl vergi ödəyirdi (13, s.75).

Meğrıgüney minbaşlığına daxil olan 18 kənd arasında daha çox ailənin qeydə alındığı Nüvədi kəndidir. 1832-1833-cü illər siyahıyaalmasına görə Nüvədi kəndində 108 ailə, o cümlədən, kişi cinsindən 291 nəfər müsəlmanın yaşadığı qeydə alınmışdır (13, s.185). Orta hesabla hər ailənin minimum 5 nəfərdən ibarət olduğunu nəzərə alsaq, qeyd edilən dövrdə kənddə minimum 540 nəfərin yaşadığını söyləmək mümkündür.

Tərtib edilən topluda Nüvədi kəndində vergi verən əhalinin tam siyahısı təqdim edilmişdir (bax: 13, s.179-185).

1868-ci ildə **Zəngəzur qəzası** formalaşdırıldı, Meğri Ordubad qəzasından alınaraq ona verildi. 1874-cü ildə Rusiya imperiyası məmurları tərəfindən bölgənin yeni bir siyahıyaalma həyata keçirilmişdir. Hazırda qəzanın 1874-cü il Kameral təsviri 4 saxlama vahidindən ibarət, rusdilli əlyazma olaraq Ermənistan Milli Arxivində saxlanılır. Bu qaynaq tədqiqatçı Nazir Əhmədli tərəfindən əldə edilərək tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərlə dəyərli bir sənəd toplusu kimi işıq üzü görmüşdür. Toplunun "Əlavələr" hissəsində yer almış Zəngəzur bəyləri, ruhaniləri və seyidləri üzrə 1863-cü ildə tərtib edilmiş kameral təsvir isə Azərbaycan Respublikası Dövlət Tarix Arxivindən əldə edilmişdir.

Təsvirə görə, Zəngəzur qəzası dörd mahala – Meğri, Qafan, Zəngəzur və Sisyan mahallarına bölünmüşdü. Nüvədi kəndinin daxil olduğu Meğri mahalı qəzanın cənub hissəsində yerləşməklə, qərbdə Alangöz dağ silsiləsi, cənubda və cənub-şərqdə Araz çayı, şimlda və şimal-şərqdə isə Baybuğan dağlarının zirvəsinə qədər Ciband və Ustupi dağ silsilələri, oradan sonra isə Araz çayına tökülənə qədər Basut çayı ilə həmsərhəd idi (14, s.4).

Nüvədi kəndinin iqtisadi həyatı ilə bağlı 1832-1833-cü illərin kameral təsvirində əks olunan məlumatlar XIX əsrin II yarısında – 1874-cü ildə həyata keçirilmiş kameral təsvirdəki məlumatlarla üst-üstə düşür. Əsas fərq ailələrin sayında və verginin miqdarında idi. **208 ailənin** yaşadığı Nüvədi kəndi 2.375 rubl illik vergi və mükəlləfiyyət ödəmişdi ki, bu da ailə başına 11,42 rubl edirdi (13, s.58).

Nüvədi kəndində vergilərin miqdarı görünür digər kəndlərdən ağır olmuşdur. Qaynağın verdiyi məlumata görə, Nüvədi kənd sakinləri 45 yaşlı Məşədi Səfər Kazım oğlu və 40 yaşlı Mustafa Zakir oğlu Nüvədi kəndində vergini ödəyə bilmədiyi üçün aileləri ilə birgə Zəngəzur qəzasının digər kəndinə – Dərzili kəndinə köçmüşlər. Təsvirin məlumatına görə, həmin Nüvədi sakinləri Dərzili kəndi üzrə vergidən azad edilmişlər (14, s.272). Tərtib edilən topluda Nüvədi kəndində vergi verən əhalinin tam siyahısı təqdim edilmişdir (14, s.494-505).

Beləliklə, həm 1832-1833-cü illər, həm də 1874-cü il kameral təsvirləri Nüvədi kəndinin təsərrüfat həyatı, vergi sistemi və əhalisi haqqında maraqlı məlumatları özündə əks etdirir. Və ən əsası təsvirin məlumatında Nüvədi kəndi təmiz müsəlman əhalinin (Azərbaycan türkləri – Ş.R.) yaşadığı yaşayış məskəni kimi qeydə alınmışdır.

5. Nüvədi XX əsrdə

Nüvədi kəndinin sakinləri ötən əsrdə bir neçə dəfə əzəli torpaqlarından amansızcasına deportasiya olunmuşlar. 1918-ci ilin dekabrında ermənilər Nüvədi kəndinin sakinlərini ata-baba torpaqlarından çıxarmışlar. Ermənistan SSR-də sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan əhalinin bir hissəsi öz doğma evlərinə dönə bilmişdir. Azərbaycan SSR-lə Ermənistan SSR arasında balans yaratmaq istəyən bolşeviklər 1921-ci ildə Zəngəzurun qərb hissəsini Ermənistana birləşdirdilər və həmin ərazidə Sisyan, Meğri, Qafan və Gorus rayonları yaradıldı. Zəngəzur qəzasının ərazisi daha az olan şərq hissəsi isə Azərbaycan SSR-in tərkibində saxlanıldı və həmin ərazidə Laçın, Qubadlı və Zəngilan rayonları yaradıldı.

Ermənistan SSR-də sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanın Zəngəzur bölgəsinin qərb hissəsi və 1927-1929-cu illərdə isə Azərbaycanın bir sıra əraziləri mərhələli olaraq Ermənistana verilmişdir. Təkcə 1929-cu ildə Zaqafqaziya MİK tərəfindən Nüvədi, Ernəzir və Tuğut kəndləri Azərbaycandan qoparılmış, elə növbəti ildə bu yaşayış məntəqələri əsasında Ermənistan SSR-də Meğri qəzası yaradılmışdır. Nüvədi kəndi Ermənistan SSR-ə verildikdən sonra 40-dan çox kənd sakini 1930-cu illərdə SSRİ-də tüğyan edən terrora və repressiyaya məruz qalmış, bir qismi isə Sibirə və Qazaxıstana sürgün edilmişdir. İkinci Dünya müharibəsindən sonrakı illərdə – 1948-1953-cü illər deportasiyası dövründə Nüvədi kəndinin əhalisinin Azərbaycan SSR-ə köçürülməsi nəzərdə tutulsa da əhali qəti surətdə bundan imtina etmişdir. Ermənistan SSR Meğri rayonu Nüvədi kənd camaatının 23 aprel 1948-ci il tarixində SSRİ rəhbəri İ.V.Stalinə ünvanlanmış məktubunda deyilirdi ki, *"bizim Nüvədi kəndi 1929-cu il fevralın 18-dək Azərbaycan SSR-in Zəngilan rayonunun tərkibində olub, sonradan Ermənistan SSR-in Meğri rayonu ərazisinə verilib. Bizi köçürməkdənsə, kəndimizi əvvəllər olduğu kimi, Azərbaycan SSR-in Zəngilan rayonuna aid edəsiniz"* (6).

Ermənistan ötən əsrin 20-ci illərin sonlarında Azərbaycandan qoparılmış torpaqların tanınması üçün cəhdlər etmiş və bu məsələ Mərkəzi Komitədə bir neçə dəfə müzakirə edilmiş, Sov.İKP MK 10, 20, 23 iyun və 5 noyabr 1968-ci il tarixlərində Azərbaycan və Ermənistan arasında mübahisəli torpaq məsələsini müzakirə etmiş, iki respublika arasında çəkilmiş sərhədlərin Ermənistan SSR və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətləri tərəfindən tanınması tapşırılmışdır. Zaqafqaziya MİK tərəfindən 1927-1929-cu illərdə Ermənistana verilmiş torpaqların ratifikasiya edilməsi nəticəsində 19000 hektar torpaq sahəsi olan Nüvədi kəndi hüquqi cəhətdən Ermənistan ərazisi kimi tanınmışdır (6).

Erməni terrorunun əsas hədəflərindən biri də yerli əhaliyə aid toponimləri ermənileşdirmək idi. Bu vandalizm ənənəsi son yüz ildə Ermənistan hakimiyyəti tərəfindən tətbiq edilməkdədir. Nüvədililərin zorla qovulmasından az sonra 2006-cı il iyulun 4-də Ermənistan parlamenti tərəfindən qəbul edilmiş qərara əsasən Nüvədi kəndinin adı dəyişdirilərək "Nrnadzor" qoyuldu. Bu adın erməni dilindən tərcüməsi "narlı dərə" deməkdir. Ermənistan hakimiyyəti Nüvədi kəndinin adını qanunsuz olaraq dəyişdirsə də, bütün tarixi mənbələr bu kəndin tarixi adının qondarma "Nrnadzor" yox, Nüvədi olduğunu təsdiq edir (2, s.273; 6).

Nəticə. Qərbi Azərbaycan ərazisində Azərbaycan türklərinə məxsus olan minlərlə yer-yurd adının Ermənistan rəsmi dairələri tərəfindən qondarma adlarla əvəz edilməsi yerli əhalinin bu ərazidə tarixi izini silmək məqsədi daşıyır. Lakin Ermənistan rəsmiləri unudurlar ki, bütün təkzibedilməz qaynaqlar sübut edir ki, indiki Ermənistan Respublikası tarixi Qərbi Azərbaycan torpaqları hesabına yaradılmışdır.

Bütün Qərbi Azərbaycan torpaqları kimi məşhur Nüvədi kəndi də bizim tarixi və mili yaddaşımızın silinməz parçasıdır. Bu yaddaşın bərpası, bütövləşməsi ideyasını ardıcıl və sistemli şəkildə davam etdirmək üçün Qərbi Azərbaycan torpaqlarının hər bir bölgəsinin tarixi, demoqrafiyası, maddi-mədəniyyəti hərtərəfli şəkildə öyrənilməli və olduğu kimi gələcək nəsillərə çatdırılmalıdır.

ƏDƏBİYYAT

1. Bayramov İ. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2011,- 288 s.
2. Bayramov İ. Tarixi Azərbaycan torpağı - Qərbi Zəngəzur. Ankara, 2023,- 373 s.
3. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, "Gənclik", 1995, - 494 s.
4. Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Bakı: Nurlan, 2007, -272 s.
5. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı, "Elm", 2003, – 580 s.
6. Əliyev F., Qurbanlı Ə., Əlizadə R. Zəngəzurun Nüvədi kəndi: tarixi gerçəklər və yalanlar.. - https://respublika-news.az/az/news/zengezurun-nuvedi-kendi-tarixi-gercekler-ve-yalanlar 06.08.2025.
7. Həmzə Vəli. Nüvədi kitabələri. Bakı, "Oğuz eli", 1998, – 56 s.
8. Kazımov Q. Nüvədi yanğısı və ya toponimlərin yeni ömrü // Ə.Əliyev. Azərbaycan dilinin Meğri şivələri, Bakı, 2003, s.5-54.
9. Musa Urud. Zəngəzur. (Elmi-publisistik nəşr), Bakı, "Nurlar", 2005, - 504 s. // file:///C:/DELL-23%20D%20diski/ZENGEZUR/Zengezur%20PDF-ler/musa_zengezur%202005.pdf [15.09.2025].
10. Rüstəmov Ə.M. *Zəngəzurun Meğri bölgəsinin toponimləri* // Sumqayıt Dövlət Universiteti 19 "Elmi Xəbərlər", c.X. Sosial və humanitar elmlər bölməsi, №2, 2014, s.19-22.
11. Rüstəmova Ş. Qərbi Azərbaycan tarixinin öyrənilməsində "Osmanlı təhrir dəftərləri"nin əhəmiyyəti // Tarix və onun problemləri. 2025, №1, s.279-286.
12. Şükürov K. Azərbaycanın tarixi Zəngəzur bölgəsi Rusiya imperiyasının tərkibində: inzibati-ərazi bölgəsindəki dəyişikliklər və əhalisi haqqında // Bax: Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər *(tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin müəllifi Nazir Əhmədli)*. Bakı, "Elm və təhsil", 2021, s.3-13.
13. Zəngəzur mahalının kameral təsviri 1832-1833-cü illər *(tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin müəllifi Nazir Əhmədli)*. Bakı, "Elm və təhsil", 2021, – 352 s.
14. Zəngəzur mahalının kameral təsviri 1874-cü il *(tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin müəllifi Nazir Əhmədli)*. Bakı, "Elm və təhsil", 2021, – 800 s.
15. https://az.wikipedia.org/wiki/Nüvədi_(Meğri)

ШАБНАМ РУСТАМОВА
Докторант Института истории и этнологии имени А.А.Бакиханова НАНА

СЕЛО НЮВЕДИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА В ИСТОРИЧЕСКИХ ИСТОЧНИКАХ

Западный Азербайджан, неотъемлемая часть которого – западная часть Зангезурского уезда – была насильственно отторгнута и незаконно присоединена к Армении в 1921 году. После передачи Зангезурского уезда Армянской ССР до 1929 года село Нюведи входило в состав Зангеланского района Азербайджанской ССР. В 1929 году село Нюведи было передано в Мегринский район Армении, и официальное решение по данному вопросу было утверждено Верховным Советом Азербайджанской ССР в мае 1969 года. Нюведи, являясь одним из древнейших азербайджанских сел региона, на протяжении всего XIX – начала XX вв. было населено исключительно азербайджанцами: в 1831 году здесь проживало 291 человек, в 1873 году – 705 человек, в 1886 году – 1083 человека, в 1897 году – 952 человека, в 1904 году –771 человек, а к 1914 году население составило 1072 человека.

В представленной статье на основе различных письменных источников и богатой литературы рассматривается история древнего села Нюведи, расположенного в Мегринском регионе Зангезура.

Ключевые слова: земли Западного Азербайджана, Зангезурский уезд, Мегринский регион, село Нюведи, османский дефтер, камеральная перепись населения.

SHABNAM RUSTAMOVA
Doctoral student at the Institute of History and Ethnology named after A.A. Bakikhanov of ANAS

THE VILLAGE OF NÜVƏDI IN WESTERN AZERBAIJAN IN HISTORICAL SOURCES

Zangezur district, an inseparable part of Western Azerbaijan that was forcibly detached, was unlawfully annexed to Armenia in 1921. After the incorporation of Zangezur district into the Armenian SSR, until 1929 the village of Nüvədi remained within the Zangilan district of the Azerbaijan SSR. In 1929, Nüvədi village was transferred to the Meghri district of Armenia, and the official decision concerning this matter was ratified by the Supreme Soviet of the Azerbaijan SSR in May 1969. Being one of the oldest Azerbaijani villages of the region, Nüvədi was exclusively inhabited by Azerbaijanis: in 1831 the population was 291, in 1873 it was 705, in 1886 it reached 1,083, in 1897 it was 952, in 1904 it numbered 771, and by 1914 it had grown to 1,072.

This article, drawing upon various written sources and a rich body of literature, examines the history of the ancient village of Nüvədi in the Meghri region of Zangezur.

Keywords: Western Azerbaijan, Zangezur, Meghri, Nüvədi, Ottoman tax registers, cameral population census.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Tofiq Nəcəfli, t.e.d. Qabil Əliyev.